# I Avropa Oyunları Azərbaycanın həm də azad vətəndaş cəmiyyətinin formalaşdığı hüquqi dövlət olduğunu nümayiş etdirdi



Ötən ay Bakıda keçirilən I Avropa Oyunları Azərbaycan üçün bir çox əhəmiyyətli məqamları ilə yadda qaldı. Təbii ki, bunlardan ən mühümü respublikamızın Avropa tarixində ilk dəfə təşkil olunan bu idman yarışmasına nümunəvi evsahibliyi etməsi idi. Azərbaycan elə təşkilatçılıq modeli ortaya qoydu ki, Avropa Oyunlarında iştirak edən idmançılar, turistlər heyranlıqlarını gizlədə bilmirdilər. Təşkilatçılıq və hazırlıq baxımından özündə yüzlərlə əməliyyatı və xidməti birləşdirən bu Oyunlarda ən xırda detallar belə zərgər dəqiqliyi ilə nəzərə alınmışdı.

I Avropa Oyunlarının Azərbaycan üçün əlamətdar cəhətlərindən biri də ölkənin beynəlxalq miqyasda təbliği oldu. Etiraf etməliyik ki, bu Oyunlar ölkəmizin tanıtımı, imicinin daha da yüksəldilməsi istiqamətində ən tutarlı vasitə idi və biz bundan lazımınca yararlana bildik. Həmin günlər dünyanın idman nəbzi Azərbaycanla, Bakı ilə döyünürdü. Dünyanın neçə-neçə ölkəsində televiziyaların bu yarışı yayımlaması həm də ölkəmizin tanıdılması idi.

## Ekvadorlu həmkarımın təəssüratları

İyunun 10-da Media Kəndində "Bakı-2015" I Avropa Oyunlarını işıqlandırmaq üçün akkreditasiyadan keçmiş media nümayəndələri üçün ziyafət təşkil olunmuşdu. Ziyafətdə əcnəbi jurnalistlərlə söhbətləşmək imkanım oldu. Hər birinin Azərbaycanla bağlı öz təəssüratları var idi. Onların arasında mənə daha maraqlı gələn Ekvadordan olan və Cənubi Amerikanın bir neçə ölkəsinin kütləvi informasiya vasitələri ilə əməkdaşlıq edən Alberto Qarsiyanın dedikləri idi. Çünki Avropa və keçmiş sovet respublikalarından olanlar Azərbaycanı az-çox tanıyırdılar. Amma Alberto okeanın o tayından, Azərbaycanla əlaqələri demək olar ki, olmayan ölkədən, həm də bizim üçün ekzotik görünən Cənubi Amerikadan gəlmişdi.

Alberto Bakıya gəlməzdən əvvəl Azərbaycanla bağlı internetdə müəyyən araşdırmalar aparmışdı. Amma dediyinə görə, ölkəmizlə bağlı ilk təəssüratları Bakıda təyyarədən enəndə, hava limanını görəndə yaranmışdı. İlk qənaəti də bu olmuşdu ki, Azərbaycan inkişaf baxımından geridə qalan dövlət deyil. Daha sonra Bakının dinamik və işgüzar həyat tərzini, paytaxtımızın dünyanın ən gözəl şəhərləri ilə ayaqlaşan müasir və modern simasını görəndən sonra özünü ölkəmizlə bağlı bezi, amma bizə açıqlamadığı düşüncələrinə görə məzəmmət etmişdi.

İdman yarışlarının son günlərinin birində Alberto Qarsiya ilə arenada təsadüfən üz-üzə gəldik. Təəssüratları indi daha çox, daha dolğun, daha obyektiv idi. İki həftədən artıq müddətdə ölkəmizi, buradakı prosesləri yetərincə öyrənə bilmişdi. İdman şərhçisi olmasına rəğmən, Azərbaycandakı siyasi və demokratik vəziyyət, bir çox müsəlman dövlətlərdən fərqli olaraq burada bəşəri və demokratik dəyərlərə sadiq mükəmməl hüquqi və dünyəvi dövlətin qurulması, azad vətəndaş cəmiyyətinin formalaşması kimi məsələlər barədə müsbət fikirlərini səsləndirdi. Onun yarı rus, yarı ingilis dilində dəfələrlə təkrarladığı bir fikir olduğu kimi hələ də yadımdadır. "Bakıda ölkəniz barədə təsəvvürüm tamamilə dəyişdi. Burada özümü sanki Avropa şəhərlərində olduğum kimi hiss etdim. Sizin özünüifadə azadlığınız, jurnalist kimi sərbəst və müstəqil fəaliyyətiniz, çəkinmədən siyasi baxışlarınızı dilə gətirməyiniz azad vətəndaş cəmiyyətində yaşadığınızı göstərir. Mən buna sadəcə heyran qalmışam. Bu cür azadlıqlar Cənubi Amerikanın bütün dövlətlərində olsa da, onların bəzilərində praktik baxımdan bunu həyata keçirmək mümkün olmur. Baxmayaraq ki, onlar hüquqi inkişaf yolunu hələ ötən əsrlərdən seçiblər".

## İnsanlar həmişə azad cəmiyyətə can atır

Cənubi Amerikadan olan bir jurnalistin ölkəmiz haqqında dedikləri, əlbəttə, qürurverici idi. Azad vətəndaş cəmiyyətinin formalaşdığı hüquqi dövlətdə yaşamaq statusundan, dinindən, irqindən və milliyyətindən asılı olmayaraq planetin hər bir sakininin arzusudur. Bir sıra ölkələrdə insanlar müxtəlif təsirlərin altında olsalar da, onların hər biri ömrüboyu azadlıq həsrətində düşünür, azad cəmiyyətə can atır. Hansı ki bu cəmiyyətdə insanın bütün hüquqları dövlət tərəfindən qorunur, ona vicdan azadlığı verilir, tolerant münasibət bəslənilir.

Cəmi 24 ildir müstəqil olan Azərbaycanın da yolu hüquqi dövlətçilik və vətəndaşlarının azad vətəndaş cəmiyyətində yaşamasını təmin etməkdir. Çünki Azərbaycanda hüquqi dövlət quruculuğu və azad vətəndaş cəmiyyətinin formalaması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi illər öncədən müəyyən edilmişdir. Lakin unutmamalıyıq ki, hüquqi dövlətçilik və azad vətəndaş cəmiyyətinin formalaşması dövətimizin müstəqilliyinin daha da möhkəmlənməsinə xidmət edən əsas amillər sırasında yer alır. Təəssüf ki, müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə bu məsələlərə barmaqarası yanaşıldı. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə hüquqi dövlət quruculuğunun həyata keçirilməsindən, demokratik prinsiplərə uyğun dövlətçilik təsisatlarının, o cümlədən azad vətəndaş cəmiyyətinin formalaşdırılmasından sonra Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndirildi. Və ulu öndərin dediyi kimi, əbədi və dönməz xarakter aldı.

Respublikamız iqtisadi-sosial və digər istiqamətlərdə nail olduğu dinamik inkişaf sayəsində, eləcə də hər bir imkandan səmərəli şəkildə istifadə etməklə enerji təhlükəsizliyi kimi məsələlərdə aparıcı mövqeyə çıxmaqla dünyada söz sahibinə, yerləşdiyi bölgədə liderə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə arxada qalan hər bir il müstəqil Azərbaycan dövlətinin yüksələn xətlə artmaqda olan gücünü, malik olduğu resurs və imkanları daha aydın göstərir, dünya ictimaiyyəti ölkəmizin beynəlxalq imicinin dərinləşməsinə xidmət edən mühüm hadisələrin şahidi olur.

Əlbəttə, qazandığımız hər bir uğuru şərtləndirən əsas amillərdən biri Azərbaycanın hüquqi dövlət prinsiplərinə sadiqliyidir. Bu çərçivədə ölkəmizdə mütərəqqi və bəşəri demokratik dəyərlərin təşəkkül tapması, insanların qanunlarla təsbit olunmuş hüquqlarının etibarlı qorunması, eləcə də siyasi azadlıqların təmini, vətəndaşların seçki hüquqlarına hörmət və beləliklə, azad vətəndaş cəmiyyətinin formalaşması da bugünkü inkişafımızın əsas səbəbləridir. Azərbaycanda hüquqi və demokratik dövlətin əsas meyarlarından olan söz, fikir və mətbuat azadlığı tam bərqərar olub, kütləvi informasiya vasitələrinin fəaliyyəti və inkişafı üçün münbit şərait yaradılıb və bu məsələlər dövlət siyasətinin əsas tərkib hissələridir. Bir çox ölkələrdən fərqli olaraq Azərbaycanda internetdən istifadə tam azaddır, media mənsubları KİV qanunvericiliyinə uyğun olaraq sərbəst məlumat əldə edə və yaya bilirlər. Ölkəmizdə 55 siyasi partiya, 3 mindən çox yaxın qeyri-hökumət təşkilatı dövlət qeydiyyatından keçib. İstənilən vətəndaşın ictimai həyatda yaxından iştirak etmək, siyasi təşkilat yaratmaq hüququ Konstitusiyada təsbit olunub. Bütün bunlar Azərbaycanın demokratik dəyərlərə sadiqliyi ilə yanaşı, həm də hüquq dövləti olmasından irəli gəlir. Ölkə vətəndaşlarının iradəsi ilə Əsas Qanunumuzda təsbit olunmuş bu məsələlər respublikamızın inkişafının əsas meyarları kimi daim aktualdır.

## Azərbaycanda heç kim milli və dini mənsubiyyətinə görə təqibə məruz qalmır

Göründüyü kimi, sosial-iqtisadi inkişafla bərabər, Azərbaycanda demokratik dəyərlərin cəmiyyət həyatında bərqərar olması istiqamətində də mühüm addımlar atılıb. Bu mənada respublikamız hüquqi və demokratik dövlətçilik ideyasının tam olaraq reallaşdığı, şəxsiyyət, vətəndaş münasibətlərinin demokratik prinsiplərə söykəndiyi, azad vətəndaş cəmiyyətinin təşəkkül tapdığı, milli və dini kimliklərin mehriban münasibətlər şəraitində yaşadığı tolerant məkandır. Bütün bunlar Azərbaycanda demokratik prinsiplərə və insan hüquqlarına olan yüksək ehtiramın göstəricisidir.

Lakin bunların fonunda Azərbaycana qarşı Qərb dünyasının bəzi ölkələri və siyasi dairələri tərəfindən ortaya qoyulan münasibət sadəcə təəssüf doğurur. Hüquqi və demokratik inkişaf, azad vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində uğurlarımızı görməyən həmin dövlətlərin rəhbərliyi və onların təsir dairələrində olan təşkilatlar Azərbaycanı tənqid etməyi sanki vərdişə çeviriblər. Məsələn, sözdə Azərbaycanın strateji tərəfdaşı olduğunu bəyan edən ABŞ-ın xarici siyasətində aydın sezilən məqamlar onun demokratiya yolunda olan ölkəmizə qarşı antidemokratik mövqeyini ortaya qoyur. Xüsusən B.Obama hakimiyyəti dövründə ABŞ-ın islamofob siyasəti gücləndiyi kimi, antiazərbaycançı fəaliyyəti də artıb. Bu da ondan irəli gəlir ki, ABŞ rəhbərliyi Azərbaycanın inkişafını, müstəqil siyasət yeritməsini, Ermənistanı acınacaqlı duruma salmasını həzm edə bilmir. Vaşinqtonda hesab edirlər ki, rəsmi Bakı onların istədiyi kimi olmalı, ABŞ-dan gələn təzislərlə xarici siyasətini həyata keçirməlidir.

Demokratiya cildinə bürünərək özünün keçmiş imperialist ambisiyalarını unuda bilməyən, geosiyasi və iqtisadi maraqlarının reallaşması üçün beynəlxalq hüququ tapdalayan ABŞ-ın bu məkrli siyasəti bütün dünyada bəşəri dəyərlərə zərbə vurur. Azərbaycanda indiyədək heç kim irqinə, milli, dini, siyasi əqidəsinə görə təqibə məruz qalmayıb. Amma ABŞ kimi özünü hüquqi dövlət sayan bir məmləkətdə hər il onlarca qaradərili insan məhz irqi ayrı-seçkilyin qurbanı olur. Onların əksəriyyətinin polis tərəfindən odlu silahla qətlə yetirilməsi hüquqi dövlət anlayışına ziddir. ABŞ-da insanların həm də dini mənsubiyyətinə görə həyatla vidalaşması bu ölkənin acı reallıqlarıdır. Bir neçə ay öncə üç gəncin məhz müsəlman olmalarına görə qətlə yetirilməsi ABŞ cəmiyyətinin hüquq deyil, digər millətlərə və dinlərə qarşı dözümsüzlük üzərində bərqərar olduğunu təsdiq edir.

Azərbaycanda hələ indiyədək seçkilər prosesində hansısa neqativ hal qeydə alınmayıb. Amma ABŞ-ın daim təəssübünü çəkdiyi Ermənistanda seçkilər zamanı namizədlərdən biri güllələnmişdi. Lakin Azərbaycanı tənqid üçün fürsət axtaran, amma tapmayaraq yalan və qərəz dolu bəyanatlar verən Avropanın bəzi dairələri, eləcə də ABŞ hakimiyyəti o zaman Ermənistanda baş verənləri sanki görmədilər. Əgər bu hadisənin ondabiri Azərbaycanda olsaydı, bir-birinin ardınca bəyanatlar verəcək, hesabatlar hazırlayacaqdılar.

Alberto Qarsiya ilə bu məsələlərdən ətraflı danışdıq. Həmkarım məəttəl qalmışdı. Çünki dünyanı qarışdırmaq üçün dəridən-qabıqdan çıxan ABŞ Cənubi Amerikanın bəzi ölkələrinə də müxtəlif vasitələrlə təzyiq göstərməyə çalışır. Albertonu məmnun edən isə ABŞ-da və ümumən Qərbdə Azərbaycana qarşı başladılan qərəzli kampaniyaların daim iflasa uğraması, ölkəmizin siyasi oyunların meydanına çevrilməməsi idi. Azərbaycanın ilk baxışdan hüquq dövləti olmasının, burada azad vətəndaş cəmiyyətinin formalaşmasının hiss olunduğunu qeyd edən və Bakıya məftun olan bu ekvadorlu gəncin yadımda qalan son sözləri isə belə oldu: "Əgər Azərbaycan Avropa Oyunlarını təşkil etməyi, 50 ölkədən minlərlə idmançını qəbul etməyi, yerləşdirməyi bacarırsa, yarışmanın hər bir xırda detalına qədər təşkilatçılıq işini belə yüksək səviyyədə həyata keçirirsə, deməli, güclü və qətiyyətli dövlətdir. Belə dövlətə isə təsir etmək mümkün deyil".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*(Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün)*